# 26 FEVRAL XOCALI SOYQIRIMI GÜNÜDÜR

Xocalı qanın qırmızısı

> *Nə qədər ki, torpaqlarımız işğal altından, düşmən tapdağından azad olunmayıb, bizim başımızı şax tutub gəzməyə haqqımız yoxdur.*
>
> **Atakişi ATAKİŞİYEV**
>
> *Bizim üçün - yazı adamları üçün məlum olan, aydın olan elə məsələlər var ki, onun izahını, axıracan şərhini lüzumsuz hesab edirik. İstər siyasət, istər ədəbiyyat, istərsə də elm və hətta din tarixində elə adlar var ki, bu adların əvvəlinə, önəminə onların titullarını, rütbələrini, nisbələrini, əlamətdar işarə tarixlərini yazmağa lüzum yoxdur.*
>
> **Müəllif.**

Xocalı soyqırımı - tarixin ən dəhşətli acısı, fəryadı. ...Bu elə bir hadisədir ki, etnosun öz haqqını, həqiqətini təsdiq eləmək və bu təsdiq üçün bundan o yana - daha üstün şans və imkanı yoxdur. Ancaq kaş Xocalı soyqırımı olmayaydı, kaş belə bir hadisə tarixin sinəsinə fakt kimi yazılmayaydı. Amma həqiqət budur ki, Xocalı soyqırımı bir etnosun digər etnosa qarşı sonsuz nifrəti kimi üzə çıxıb. Düşmənliyin, yağılığın da təhəri var. Ancaq bu günün güzgüsündən baxanda və düşünəndə ki, nə vaxtsa təzədən biz, bizə yağı olan etnosla qonşu olacağıq, gələn yüzillikləri bir qonşuluq mühitində yaşayacağıq, onda başqa nəyi arzulamaq olar? Bəli, kaş bu qətliam olmayaydı.

Amma bu qətliam oldu. Erməni vandalları insanlığa qarşı qəsd elədilər; azərbaycanlılara - türklərə yox, ümumiyyətlə, haqsız, əsassız məqsədə yetmək naminə insana qarşı heyvani qəsd yolu tutdular.

...Və Xocalı soyqırımı törəndi.

* * *

Bu gün kimsəyə Atakişi Atakişiyev haqqında danışmaq, nəyi isə izah eləmək, bu adın arxasındakı şəxsiyyəti təqdim eləmək, zənnimcə, mənasızdır. Ən azı ona görə ki, ad özünün kimliyini eşidilən və yaxud oxunan anda təqdim edir. Əlbəttə, söhbət cəmiyyətdə özünü təsdiq etmiş addan gedir, nə qədər təzadlı olsa da. Əlbəttə, söhbət konkret olaraq bir adın mahiyyətindən və yaxud adın daşıyıcısından getmir.

Nədənsə - heç nədənsə yox, həm də elə həqiqətdən çıxış eləsək, Atakişi müəllimin adını eşidəndə, hardasa onun adı ilə bağlı bir yazını oxuyanda dəxli oldu-olmadı mənim gözümdə, nəzərlərimdə Xocalı bütün miqyası ilə canlanır.

...Ələqqay kəsilib. Ün bir tərəfə çatmır. İnsan əllərini göyə açıb: *"Ya Rəbbim, imdad ver"*.

...Allah deyir ki, sənə ağıl, güc, qüdrət vermişəm. Bütün çətinliklərdən xilas olmaq üçün - nicat üçün təbii imkanlar bəxş eləmişəm. Sən niyə mənə ümid olmusan? İnsan özünə qayıtmaq, özünü dərk etmək üçün bundan o yana hansı dini, mənəvi, nəzəri düşüncə istinadı axtarmalıdır? Və elə bu yerdəcə o məqama qayıdıram ki, bir adın dönəmində və indi... çoxdan məqamı çatmış, vaxtı çatmış bir həqiqəti də demək olar. Öldürülmüş Xocalı, yandırılmış Xocalı, məhv edilmiş Xocalı nəinki birlərin, yüzlərin, minlərin özüdür, həm də həmin günlərdə, bəlkə də, dünyanın ən faciəli, ən ağırlı vəzifəsinin daşıyıcısı Atakişi Atakişiyevin faciəsi idi.

İnsan nə vaxt yurdlaşa bilir. İnsan nə vaxt vətənləşə bilir? İnsan nə vaxt torpaq ilə özü arasındakı sərhədləri götürür. Danışan, söz deyən insan dönüb bir ovuc torpaq olur. Bunun üçün həm də dərisi soyulmaq, gözü çıxarılmaq, boynu vurulmaq hökmü deyil, torpağı sevənin, yeri-yurdu sevənin, Vətənini sevənin əlindən, ixtiyarından sevdiyini al, gözünün tikəcəyini al... elə bu insanın özüdür, onun varlığıdır. Nə qədər çalışsaq da, istəsək də ucuz tərif deməyək, kimisə ideallaşdırıb ucalara qaldırmayaq.

Lap yaxşı. Həqiqətin sərhədlərini niyə keçməliyik? Amma əgər həqiqətin içindəyiksə, onu niyə deməyək? Açığı 20 ildən neçə il də çoxdur ki, nə qədər imkanım olsa da, Atakişi Atakişiyevlə görüşmək, dilləşmək, sözləşmək istəsəm də... son anda bu istəkdən qaçmışam. Elə bil ki, o faciəli günlərin, o əzablı günlərin, o iztirablı günlərin... ağrılarına təzədən yaşamağa gücümün çatmayacağını düşünmüşəm.

... Xocalı Azərbaycan tarixinin qanla yazılmış yaddaşıdır. Məni kimsə assın, güllələsin, öldürsün, qanım halaldır səhv deyirəmsə, Xocalı qanlarına görə təkcə düşmən cavabdeh deyil. Əlbbəttə, söhbət gedirsə, nə üçün düşməndən cavabdehlik ummalıyıq. Böyük həqiqət bundan ibarətdir ki, biz elə bu dəqiqə, bu gün kimsə Azərbaycana hücum eləmək istəsin, biz də sərhədləri boşaldaq və deyək insanlıq qanunlarına görə siz - ey düşmən heç kimə toxunmayın, bu nə dərəcədə ağıla batandır?

Qayıdaq tarixi həqiqətə. Xocalı bidət deyilsə - Allahın da yadından çıxmışdı, nəinki öz hökumətinin başda oturan soydaşlarının. Həmin günlərdə Xocalıda oturub qanunun aliliyini, qanunun gücünü, qüdrətini qorumaq niyyəti ilə həm dövlətçilik mövqeyindən, həm də hökumət tapşırığı kimi qorumaq istəyən bir kimsə vardı. Bu Atakişi Atakişiyev idi.

Bu yazının içindən Atakişi Atakişiyev adını gəlin silək. Bu adı bir daha təkrar eləməyək. Amma fakt faktlığında qalır. Həmin günlərdə Xocalıda olub, Xocalının mərkəzində iqamətgahını son günlərəcən qoruyan bir simanın adını biz gizləyə bilmərik ki. Bu da məhz o kişi idi. Onun adı Atakişi idi.

Mən həmişə bütün yazılarımda adların mahiyyəti haqqında ayrıca danışmağı daha üstün tuturam. Və bu məqamda mən Allaha şükür eləyirəm ki, Atakişi adında bir insan öz dövlətinin, xalqının, hökumətinin təmsilçisi olaraq adına xəyanət eləməyib, adının müqəddəsliyini qoruyub, doğrudan-doğruya Allah eləməmiş *"Atakişi"* adında bir məxluq bu müqəddəs meyarlara xilaf çıxmış olardı. Onda atalığın, onda kişiliyin hansı meyarından danışmaq olardı?

Atakişi Atakişiyev - Xocalının prokroru böyük tarixi hadisənin proloqu idi. Gələcəkdə min səhifələrlə yazılacaq kitabların ön sözü idi. Və o, bu ön sözü ilə - yalnız fiqur, görüntü, şəkil yox, hətta təkcə canını, nəinki girov parça-tikə olmaqdan da qorxmadan təslim etmək gücündə idi - demək istəyirdi ki, bu yurd, bu məmləkət yiyəsiz deyil. Onun on illərdən, lap elə olsun yarım əsrdən də sonra olsa belə yiyəsi gələcək...

Hava qara buludların altında qatılaşır. Mühasirə daralır, döşünə döyən igidlər bir-bir inamlı düşmən gülləleri ilə sıradan çıxarılır. Və bu az məsələ deyil. Düşmən gülləsi daha inamlıdır, müdafiəçi gülləsi daha seyrəkdir və daha gücsüz görünür. Xocalının dairəsi get-gedə daralır, daha vertolyotlar da seyrək gəlir, humanitar yardım da yoxdur. Xocalının prokroru öz kabinetindədir. Hələ mərkəzə nə isə çatdırmaq üçün imkan var.

Birinci teleqram: *"TƏCİLİ TELEQRAFLA Bakı, Azərbaycan Respublikasının Prezidenti A.Mütəllibov yoldaşa Surəti: Respublika baş prokuroru M.Babayev yoldaşa: Sizə müraciət edərək bildirirəm ki, DQMV-nin Cəmilli və Tuğ kəndlərindən azərbaycanlıları erməni quldurları çıxartmışlar. Malıbəylidə vəziyyət olduqca ağırdır. Dağlıq Qarabağda erməni quldurları üçün ən təhlükəli yer Xocalıdır. Çünki Xocalı Əsgəranın və Stepanakertin ortasında yerləşir. Burada dəmiryolu və aeroport vardır. Xocalı şəhərinə Əsgəran ilə Stepanakert (Xankədi - red.) arasından olan yol 25-30 gündür ki, kəsilmişdir. Gediş-gəliş yoxdur. Bu günə kimi belə çətin vəziyyətdə heç bir kömək olmadan yaşayırıq. Xüsusi ilə yerli milis şöbəsi, aeroport milisi, öz yaratdığımız milli müdafiə dəstələri fədakarlıq göstərir. Buna baxmayaraq, vəziyyət getdikcə çətinləşir. Ona görə ki, 25-30 gündür ki, yol işləmir.Vertolyot işləmir. DQMV üzrə qərargah indiyə kimi bizə heç bir kömək edə bilməmişdir. 10 gündür ki, maşın, heç bir şey işləmir. Ərzaq malımız yoxdur. Müharibə vəziyyətində bütün bunlara dözmək olar. Lakin bir şeyə dözmək mümkün deyil - hər şeyimiz qurtarmışdır. Bizi başa düşün ki, nə demək istəyirik. Artıq xalq Xocalını tərk etmək üzrədir.*

*Xocalı əhalisi Xocalını tərk etdikdə Əsgəranla Stepanakert arası açılacaq. Azərbaycanın bu işlərdə çəkdiyi əziyyətlər hədər olacaq. Sonra DQMV-də vəziyyət daha ağırlaşacaq. Onu bilirəm ki, hələ Xocalı şəhərini bu günə kimi heç kim gözüylə görüb, müşahidə edib, məlumat çatdırmayıb. Sizdən artıq dərəcədə xahiş edirik ki, bizə lazım olan şeyləri çatdırasınız. Xocalıda heç bir idarə, müəssisə, məktəb, kolxoz və sovxoz işləmir, fəaliyyət dayanmışdır. Yaralıları aparmağa təcili yardım maşını yoxdur. Yaralıları heç bir yerə aparmaq mümkün deyil. Adi sarğı materialı da yoxdur. Ancaq müharibə şəraitində yaşamaq çətindir. Biz sizdən təxirəsalınmadan kömək və ümid gözləyirik. Sonra bizim üçün gec olar. Xocalıda un da yoxdur. Bizə təcili kömək edin: A.ATAKİŞİYEV, Xocalı şəhər prokuroru, 27 dekabr 1991"*.

Nə qədər həqiqət, nə qədər doğru, düzgün məlumat... tarixən belə məlumatların analoqu çox azdır. Və zaman keçəndən sonra ən azı gələcək nəsillər üçün belə məlumatların dəyərlərini qorumaq naminə - ən başlıcası inamı qorumaq naminə qiymətləndirməyə çalışıblar. Nümunə üçün keçmiş Sovet məkanını yada salmaq kifayətdir.

Rixard Zorge əfsanəvi bir qəhrəmandır. Bu bakılı Zorgenin qəhrəmanlığını bu gün XX əsrin son iki qərinəsi üçün bicililər inkar eləmirlər. Və təsadüfi deyil ki, Rixard Zorgenin Yaponiyadan göndərdiyi 3-4 cümlədən, bəlkə də daha az - məlumatı sonrakı zamanlarda təhlil olunanda, öyrəniləndə onun qəhrəmanlığının miqyası aşkarlandı. Budur həqiqət, bunu zaman keçsə də, bəşərə, bəşərin ruhuna, varlığına doğru yönəlmiş cinayətin qarşısını almağa qadir olan informasiyanın dəyəri...

Bəs nə üçün bu cahanda, bu məmləkətdə hətta eləsi tapılıb ki, (mövcud durumda) Atakişi Atakişiyevin göndərdiyi məlumatın həyat iksirliyini dərk eləməyib.

İnsan nə vaxt bəsirət gözündən batır? Allahını unudanda, yaddaşını unudanda, mənəviyyatını unudanda, istəklərini, diləklərini tamahlarına qurban verəndə. Bu necə hadisədir? Bu necə bir tarixi olaydır ki, bütöv bir məmləkət özünün birini, parçasını, doğmasını yaddan çıxarsın. Bu yerdə bəzi həqiqətləri demək imkanı da var. Bəlkə də Azərbaycan hökuməti azərbaycanların - türklərin tarixi düşmənləri olmaq iddiasından əl çəkməyən, hətta bu gün də elə bu iddiada olan erməni vandallarının qəddarlıq, yağılıq təfəkkürünü qədərincə dərk etməyiblər.

Zaman göstərir ki, düşmən Azərbaycan torpağına və azərbaycanlıların qanına yerikləyir. Bunu dərk eləmək, görmək üçün bəsirət gözünə ehtiyac yoxdur. Adi gözlə də görünən həqiqətdir. Düşmən yeriyir və...

Atakişi Atakişiyev görür ki, dövlətin təyin elədiyi missiyada - prokurorluq missiyasında artıq müharibə həddində olan düşüncələri idarə eləmək həddində deyil. Ən pisi də odur ki, artıq ayrı-ayrı ərazilərdən gələn xəbərlər - hətta şayiə şəklində olsa da göstərir ki, artıq düşmən qanunla hesablaşmır.

Xocalının dairəsi qapanmaq üzrədir.

...Bu yerdə Xocalı ətrafında baş verən hadisələrin qəhrəmanları haqqında danışmamaq böyük suçdur. Əlif Hacıyev Azərbaycanın milli qəhrəmanı, Vüqar Hüseynov Azərbaycanın milli qəhrəmanı... və eləcə buradaca deməliyəm ki, Cəbrayıl rayonunun - bizim yaxın, doğma kəndimizə simsar olan daşkəsənli Vüqar Hüseynov - atası Tofiq müəllim həmin böyük hadisələrin miqyasında, Cəbrayılın mənəvi mühitində Vüqarın ölümü ilə bağlı... xronikanı izləyirdik. Əlbəttə, Əlif də, Vüqar da digər milli qəhrəmanlar da Xocalının tarixində müstəsna xidmətləri olan simalardır. Amma onların ideoloqu, onların ağsaqqalı, müdriki Atakişi Atakişiyevin adını, ünvanını bu gün bizə qədərincə tanımağa nə mane ola bilər? Axı nə üçün kimsə böyük həqiqətin qarşısına sipər çəkməlidir, yaxud buna necə cəsarət etməlidir? Başqa nə ad vermək olar? Əgər doğrudan- doğruya böyük həqiqət öz gücündə idisə, onda nə üçün Xocalının mötəbər dövlət orqanında olan böyük keşikçisinin daha həyəcanlı ikinci teleqramına əhəmiyyət verilmir: *"Azərbaycan Respublikasının Prezidenti A.Mütəllibov yoldaşa, Surəti: Azərbaycan Respublikası Baş prokuroru M.Babayev yoldaşa, Surəti: Azərbaycan Teleradio Şirkətinin "24 Saat" proqramına: "...Xocalı rayonu artıq əldən gedir. Bütün bu hadisələr Xocalının üstündədir. Xocalı gedərsə, DQMV ermənilərin olacaq. Ona görə də Əsgəran aradan götürülməlidir.*

*Artıq 25 gündür Xocalıya heç bir vertolyot işləmir. Hazırda Xocalıda 7 min əhali yaşayır: arvad, uşaq, qoca və s. Əgər siz bizə kömək etməsəniz, 4 illik zəhmət hədər gedəcək. Biz sizdən təxirəsalınmaz kömək gözləyirik. Xocalı Azərbaycanın taleyini həll edir". A.ATAKİŞİYEV, Xocalı rayon prokuroru, 25 fevral 1992"*. Bu teleqramın vurulmasından düz 23 il keçir. Amma hər ilin Xocalı soyqırımı günündə Atakişi Atakişiyev orada həlak olan insanlarla birgə zərrə-zərrə iki dünya arasında canını bölüşür. Həyat, tale... mücərrəd məhfumlardır. Ölümlə üzbəüz gələndə insan dərk eləyir ki, həyat nədir, tale nədir. Qanun keşikçisi Atakişi müəllim... ölümlərin içindən keçdi zəmanəmizə gəlib çatdı. Şərqin müqəddəs ocaqlarını ziyarət elədi. Ruhunda, varlığında böyük həqiqətlər haqqında heç vaxt dəyişməyəcək meyarları dərk elədi.

Amma bizim üçün böyük Atakişi - bayaq adların mahiyyəti haqqında ötəri olsa da, düşüncələrimizi qeyd elədik. Ata və kişi adları həm insanlığın, həm də böyük türkün mənəvi mühitində başlanğıcın sahibi - Ata, Kişi - insan, güc, qüdrət sahibi kimi qavranılıb. Çox böyük xoşbəxtlikdir. Tanrı insana qismət eləyə adının mahiyyətinə uyğun yaşaya... Atalıq və kişilik... özünü dərk eləyən insan üçün bundan yuxarı bir mərtəbə varmı?

...Biz böyük insan simalarını çox vaxt xəyali düşüncələrimizdə axtarırıq. Ancaq beləlləri həyatda var. Və mən sevinirəm ki, yalnız bircə dəfə - son 33 ildə, yəni bir qərinədə bircə dəfə üzünü ötəri gördüyüm Atakişi Atakişiyev adında bir kişi var.

Böyük Türk kişi anlamında cins mahiyyəti görmürdü. Mərdlik gördü, güc gördü, qüdrət gördü. Və bu gün Atakişi Atakişiyevin timsalında gördüyüm (şəxsən görməsəm də), duyduğum, hiss elədiyim keyfiyyətlərdən söhbət gedir. Bir sözlə, biz böyük həyatın qəhrəmanlarından danışırıq.

...Bu qeydlər yaşadığımız həyatın yalnız proloqudur.

Bu, Xocalı qanının qırmızısı - yəni həqiqətdir.

***Əli Rza XƏLƏFLİ,***
***26 fevral 2015***